# Zəngəzurun qeyrət qalası–Nüvədi

**Qəhrəman Nüvədi kəndi Qərbi Azərbaycanın Zəngəzur bölgəsində yerləşir. 1941-ci ildə bura dəmiryolu çəkilmiş, 1947-ci ildə isə kənddə elektrik işığı olmuşdur. Kənddə iki və üçmərtəbəli evlər, müasir məktəb binası, poçt, teleqraf, əmanət kassası, telefon qovşağı var idi. Evlərdə mavi yanacaqdan istifadə edilirdi.**

**Kənd əhalisi əsasən bağçılıq və maldarlıqla məşğul idi. Bu kənd ən böyük inzibati kənd rayonu idi. Eyni zamanda əhalisinin sayına görə də Nüvədi Meğri rayonunun ən böyük kəndi idi.**

Kənd əhalisi mübarizliyi, qəhrəmanlığı ilə bütün Azərbaycana şərəf gətirmiş, 3 ilə yaxın Ermənistan hökuməti ilə qəhrəmancasına mübarizə apararaq bütün təzyiq və hücumlara rəğmən təslim olmamış, öz dəyənətini tarixə yazmışdır. Nüvədi Meğri rayon mərkəzindən 26 km şimal-şərqdə Zəngilan rayonu ilə sərhəddə yerləşir. Bu kənd Qafqazda ən qədim yaşayış məskənlərindən biridir. Bu kəndin sakini, tədqiqatçı-yazıçı, mərhum Həmzə Vəli Nüvədili kəşf etdiyi və bütün ömrünü həsr edərək öyrəndiyi Nüvədi kəndi yaxınlığında Qarqadaşı dağında tapılmış qədim daş kitabələrin üzərindəki Orxon-Yenisey yazılarından xeyli əvvəlki dövrə məxsus olan daş kitabələr Nüvədi kəndinin qədim tarixindən xəbər verir. Nüvədidə 1831-ci ildə 291 nəfər, 1886-cı ildə 1083 nəfər, 1897-ci ildə 952 nəfər, 1914-cü ildə 1072 nəfər, 1970-ci ildə 1500 nəfər əhali yaşamışdır.

1918-ci ilin sonlarında Andronikin daşnak dəstələri Nüvədiyə basqın edərək kəndi yandırıb dağıtmış, nüvədililəri kənddən çıxarıb qovmuşdur. Bu hadisələr zamanı Nüvədi camaatının böyük bir hissəsi Araz çayını keçərək Cənubi Azərbaycana sığınmış, Misən kəndində yerləşmişlər. Kənd camaatının yalnız bir hissəsi 1922-ci ildən başlayaraq yenidən Nüvədiyə qayıtmış, kəndi, təsərrüfatı bərpa etmişdir. Nüvədi camaatının bir neçə tayfası Misən kəndində qalaraq oranın daimi sakininə çevrilmişlər.

Nüvədi kəndi və onun yaxınlığında mövcud olmuş Ernəzir və Tuqut kəndləri 1929-cu ilə qədər Azərbaycanın Cəbrayıl qəzasının tabeçiliyində olmuş, yalnız həmin il fevralın 18-də Zaqafqaziya MİK rəyasət heyətinin qərarı ilə Ermənistana verilmişdir. Onu da qeyd etmək lazımdır ki, həmin qərar Azərbaycan Respublikası hökuməti tərəfindən yalnız Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 7 may 1969-cu il qərarı ilə təsdiq edilmişdir.

1930-cu illərin əvvəllərində Nüvədidə kolxoz qurulmuş, orta məktəb açılmışdır.

Birinci Dünya Müharibəsində yüzdən çox nüvədili iştirak etmiş, onlardan 66 nəfəri geriyə qayıtmamışdır.

Nüvədi kəndi öz ziyalıları ilə tanınmış qədim kəndlərimizdəndir. Bu kənd Azərbaycan elminə 5 nəfər elmlər doktoru, 70-dən çox elmlər namizədi, yüzlərlə ali təhsilli, yüksək ixtisaslı ziyalı bəxş etmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Fikrət Əliyev, müxbir üzvü Faiq Cəfərov Nüvədi kəndinin yetirmələridir. Nüvədililərdən 3 nəfəri Ermənistan SSR-in, 2 nəfəri isə Azərbaycan Milli Məclisinin deputatı olub.

Nüvədililər 1988-ci il noyabr ayının 22-dən 1991-ci ilin avqustun 8-dək 950 gün erməni qoşun birləşmələrinə qarşı mərdliklə döyüşmüşlər.

Təəssüf ki, bu qəhrəman kənd haqqında bir neçə kitab və 5-10 dəqiqəlik televiziya verilişlərini çıxsaq, Azərbaycan oxucusuna, ümumən azərbaycanlılara heç bir məlumat verilməyib.

3 ilə yaxın bir müddətdə amansız düşmənə qarşı təkbaşına vuruşmaq, düşmənə layiqli cavab vermək, blokadada yaşamaq, hətta Böyük Vətən Müharibəsi dövründə də belə qəhrəmanlıq olmamışdır. Artıq 1989-cu ildə Ermənistan Respublikasında 1 nəfər belə azərbaycanlı qalmadığı halda nüvədililər qocalı, qadınlı, uşaqlı—hamı kəndi müdafiə edirdi. Nüvədinin könüllü özünümüdafiə dəstələri dörd bir tərəfdə doğma kəndləri uğrunda ölüm-dirim savaşına girmişdilər.

XX əsrdə ermənilər Nüvədiyə 3 dəfə hücum etmişdilər 1905, 1918, 1988-ci illər. Təkrarlanan bu tarixlərin heç birində ermənilər kəndə girə bilməmişlər. Hər üç hücumun qarşısı aylarla və illərlə alınmışdır. Təəssüf ki, həmişə köməksiz qalan nüvədililər axırda özləri kəndlərini tərk etməli olmuşlar.

1950-60-cı illərdə Nüvədi yüksək sürətlə inkişaf edərək ən inkişaf etmiş müasir kəndə çevrilmişdir. Kənd təsərrüfatı elə inkişaf etmişdir ki, naringi və portağaldan başqa yerdə qalan bütün meyvələr Nüvədidə yetişdirilirdi. Üzüm, əncir, ərik, şaftalı, heyva, qoz, nar, alma meyvələrinin elə sortları var idi ki, bu sortlar dünyanın heç bir yerində yetişmirdi.



Məsələn: "Hərəqorna" üzüm sortu, "Yez" nar sortu, "Limon" ərik sortu, "Özüqırılan" qoz sortu və s. Təsərrüfatlardan hər il 10 min tonlarla meyvə rayon konserv zavoduna göndərilirdi.

Nüvədi başdan-başa tarixi abidələr diyarı idi.

"Sultan Səlma" (Türk sultan Səlimin tikdirdiyi karvansara), "Baba Hacı", "Əbdül Ata", "Buhakar" (İmam Rza əleyhissalamın qardaşı seyid Əhməd ağa və onun bacısı burada dəfn edilmişlər).

Nüvədi kəndi şərqdən Zəngilan rayonu, cənubdan İran İslam Respublikası, şimaldan Ermənistanın Qafan və Sisyan rayonları, qərbdən Meğri rayonu ilə həmsərhəddir.

Ulu öndər Heydər Əliyev 29 dekabr 1996-cı ildə Zəngilan rayon ictimaiyyəti nümayəndələrinin görüşü zamanı Nüvədinin süqutunun səbəbi barədə açıqlama vermişdir.

"Megrinin ən böyük kəndi—Nüvədi barədə burada söhbət elədilər. Bəli, bu Nüvədi kəndi də ətrafında gedən cürbəcür proseslər məhz Azərbaycan tərəfinin həm bacarıqsızlığı, həm səriştəsizliyi və bəzən də satqınlığı nəticəsində meydana çıxmışdır. Hətta 1991-ci ildə orada olarkən nüvədililər Naxçıvana bir neçə dəfə gəlmişlər və onların orada yaşamasına kömək etmək üçün mənə müraciət etmişdilər. Sonra onlar Zəngilanın Vejnəli kəndinə köçərək orada çadır qurub yaşadılar. Mən Naxçıvandan iki-üç dəfə oraya vertolyotlarla nümayəndə heyəti göndərmişdim, gedib onların vəziyyətini öyrənmişdilər. Onlara kömək göstərmişdim. Naxçıvanda biz özümüz də ağır vəziyyətdə blokada vəziyyətində idik..."

Naxçıvanı Azərbaycandan ayıran 45 kilometr dəmiryolun və maşın yolunun 25 kilometri Nüvədinin payına düşürdü. Bu elə bir yol idi ki, ermənilər Nüvədini ala bilsəydilər, onlar asanlıqla Zəngilan, Cəbrayıl və Füzuliyə hücuma keçə bilərdilər.

Lakin qəhrəman nüvədililər vuruşur, Vətəni qoruyur, düşməni geri oturdurdular.

Kənd əhalisi bu müddətdə dəfələrlə Azərbaycanın ozamankı rəhbərliyinə müraciət edir, kömək istəyirdilər. Lakin "başqa dövlətin torpağına biz müdaxilə edə bilmərik" deyən ozamankı çinovniklər bu kəndə heç bir köməklik göstərmədilər.

1989-cu il oktyabr ayının 11-də kənd əhalisi yenidən Zəngilan rayonunun tabeçiliyinə keçmək üçün Zəngilan rayon XDS-yə və Azərbaycan SSR Ali Sovetinə müraciət göndərdi. Hər iki müraciət cavabsız qaldı...

1991-ci il avqust ayının 7-də Azərbaycan KP MK-nın ikinci katibi V.Polyaniçko Zəngilana gəldi və Nüvədi kəndinin ağsaqqalları ilə görüşdü. Polyaniçko bildirdi ki, vəziyyət çox ağırdır. Azərbaycan hökuməti hər yerdə Ermənistanı ittiham edir ki, azərbaycanlılar Ermənistandan qovulub. Siz isə hələ oradasınız. "Siz buradan çıxsanız, ermənilərin deməyə sözü qalmaz, biz də onları beynəlxalq aləmdə ifşa edərik..."

Bu söhbətdən 7 saat sonra rus əsgərlərinin səyi ilə Polyaniçkonun qurduğu xəyanətkar plan əsasında Nüvədi kəndi boşaldıldı.

Avqustun 8-i saat 5 radələrində kəndə gətirilmiş rus əsgərləri bildirdilər ki, artıq erməni döyüşçüləri kəndə daxil olublar. Silah işlətmək artıq gecdir.

Qırğın olmadan kəndi tərk etməlisiniz. Yoxsa ermənilər həm sizi, həm də "bizi" qıracaqlar.

Beləliklə, Nüvədi boşaldıldı. Camaat əvvəlcə kəndin İranla sərhəd olan dəmiryol stansiyasında yerləşdilər. 3 gün keçdikdən sonra avqust ayının 11-də kənd ağsaqqalları C.Əliyev, H.Musayev, M.Amanov başda olmaqla bir neçə nüvədilinin iştirakı ilə "Sığırt" zastavasında ermənilərlə görüş keçirildi.

Erməni tərəfdən Ermənistan DİN-in müavini polkovnik Qriqoryan, Meğri rayon İcra Hakimiyyətinin başçısı Andreasyan, rayon daxili işlər və təhlükəsizlik şöbəsinin sədri və müavinlərinin iştirakı ilə olan bu görüşdə erməni tərəfi belə bir məsələ qoydu ki, kəndə 100 erməni ailəsi (qaçqın) yerləşdiriləcək və siz birlikdə yaşayacaqsınız, ancaq onlara tabe olacaqsınız.

Azərbaycanla heç bir əlaqəniz olmayacaq. Bu, Polyaniçkonun hazırladığı plan idi. O, bilirdi ki, kənd camaatı buna razı olmayacaq. Təbii ki, bu şərtlərlə razılaşmaq olmazdı. Beləliklə, Nüvədi süqut etdi.

Erməni qoşun birləşmələri Nüvədi kəndini almaq üçün 18 dəfə hücum planı hazırlamışdılar. Lakin onlar hər hücumda 12-15 nəfər itki verərək geri oturdulmuşlar. Təxminən hesablamalara görə bu döyüşlərdə 100-dən artıq erməni öldürülmüşdü.

Ən ağır döyüş 1990-cı ilin aprel ayının 24-də qondarma "genosid" günü oldu. Onlar həmin gün sanki bütün "türk-müsəlman" dünyasından intiqam almaq üçün hücuma keçmişdilər.

Ağır döyüşdə ermənilər layiqli cavab alaraq geri çəkildilər. Döyüş meydanında 19 erməni meyiti qalmışdı. Bu döyüşdə nüvədililərin sevimlisi serjant Yevgeni Yurçenko qəhrəmancasına həlak oldu, 4 nəfər ağır yaralandı.

Nüvədililər onun bu igidliyini heç vaxt unutmayacaqlar. Elə həmin günün sabahısı kəndin 1941-1945-ci il qəhrəmanlarına qoyulmuş abidənin yanında Y.Yurçenkoya da əzəmətli bir abidə ucaldıldı.

O dövrdə Bakı, Gəncə və Sumqayıtda yaşayan nüvədililər hər vasitə ilə doğma kəndlərinə kömək edirdilər. 1990-cı ilin sentyabrında mərhum akademik Fərəməz Maqsudov nüvədililərdən ibarət xüsusi qrup yaratdı və dedi ki, biz əvvəlcə Nüvədini blokadadan çıxarmalı, sonra Naxçıvanın yolunu tamam açmalıyıq. Onlar məşhur neftçi Əmir Qasımovdan vertolyot xahiş etdilər. Rəhmətlik Əmir Qasımov bir vertolyot verdi. Ziyalılar Nüvədiyə uçsalar da, ermənilərin atəşi onları Nüvədiyə enməyə imkan vermədi. Məcbur olub Zəngilana düşdülər.

Zəngilan rayonunun ozamankı rəhbəri Mehdiyev maşın ayırdı. Lakin Fərəməz müəllimə dedilər ki, yollar çox çətindir, bəlkə sən getməyəsən?" Fərəməz müəllim uca səslə bildirdi ki, "minlərlə nüvədili ölüm-dirim savaşında olduğu halda, mən niyə ölümdən qorxmalıyam. Əgər ölərəmsə, bir alimin ölümü bəlkə də dünyada təlaş doğurar, ancaq xalqımıza qarşı törədilən bu soyqırımlar bütün dünyaya bəyan olar. Beləliklə, çox təhlükəli yollarla onlar Nüvədiyə daxil ola bildilər. Nə yaxşı ki, gözəl alimimizin apardığı televiziya işçiləri son dəfə bu qədim türk torpağının gözəlliklərini, övladlarının qəhrəmanlığını kameranın yaddaşına həkk edə bildilər.

Sonra Fərəməz müəllim "Nüvədi komitəsinin" işi ilə tanış oldu, könüllü müdafiə dəstələri ilə görüşdü. Tam əmin oldu ki, kəndi qorumaq olar.

Sonra o akademik Fikrət Əliyevi və bir neçə ziyalını Moskvaya Ali Sovetin sədri Lukyanovun qəbuluna göndərdi. Təəssüf ki, bu zaman keçmiş SSRİ hökuməti Arkadi Volskinin vasitəsi ilə ermənilərin xeyrinə hər bir işi həll edirdi.

Nüvədinin verilməsində Viktor Polyaniçko, polkovnik Merkulov, kapitan Nikulun, mayor Barkin, polkovnik Şirokopoyas əsas rol oynayanlardır.

Nüvədililər 24 ildir ki, Nüvədisiz yaşayırlar.

Lakin onlar ümidlərini itirməyiblər, doğma ata-baba ocaqlarına qayıdacaqlarına inanırlar. İnanırlar ki, möhtərəm Prezidentimiz İlham Əliyevin gecəli-gündüzlü apardığı fəal, düşünülmüş siyasəti nəticəsində yurd-yuvalarına dönəcəklər.



**Füzuli HƏSƏNOV,**
**Nəsimi rayonundakı 133 №-li məktəbin direktoru.**